# MÜSƏLMAN DÜNYASINDA İNTEQRASİYA PROSESLƏRİ: GEOTARİXİ HÜDUDLAR VƏ MEYARLAR

**N.Ç.AXUNDOVA**
*Bakı Dövlət Universiteti*

Müasir dünyanın inkişafında mühüm cəhətlərindən biri siyasi, iqtisadi və mədəni proseslərin bütövləşməsindən ibarətdir. Bu proseslərin öyrənilməsi, onların millətlərarası dünya əlaqələrinin müxtəlif səviyyəsində özlərini biruzə verməsi tədqiqatçıların diqqətini həmişə çəkmişdir və son onilliklərdə isə əsas maraq Şərqin müsəlman dövlətlərinə yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, müasir müsəlman dünyasında mərkəzdənqaçma və mərkəzləşmə qüvvələri arasındakı nisbət müxtəlif baxışlar ortalığa çıxarmışdır və hazırda «müsəlman dünyası», «müsəlman ölkələri» və hətta «islam» terminlərinə yanaşmada belə birmənalıq yoxdur. Onlara yanaşmada əsasən iki fərqli nöqteyi-nəzəri göstərmək olar. Bunlardan biri islam təsirinin geniş və hərtərəfli olmasına əsaslanır və onun tərəfdarları dünyada baş verən müxtəlif səpkili görüntüləri və hadisələri müsəlman ideologiyası ilə əlaqələndirirlər. Məsələn, İran inqilabı, Dağlıq Qarabaq hadisələri, əl-Qaidanın fəaliyyəti, Yaxın Şərqdə baş verən silahlı qarşıdurmaları və s. ilə [1, 36]. Digər fikrin təmsilçiləri isə islamla ancaq dini prosesləri bağlayır və müasir Şərqdə sekulyar (dünyəvi) meyllərin artması tezisindən çıxış edirlər [2, 57]. Onların məntiqi ilə islam həmrəyliyi təşkilatları, beynəlxalq müsəlman təşkilatları şəbəkəsi müasir reallıq kontekstində qəbul olunur və bu zaman klassik islamla müasir «islamçılıq» arasında tarixi varislik inkar edilir.

Həm də nə zaman ki, müsəlman ictimai fikrinin müxtəlif konsepsiyalarını prinsip etibarilə bu və ya digər siyasi qüvvələrin aləti kimi qəbul etmək olar, hərçənd biz hesab edirik ki, bu, məsələyə bir qədər səthi baxışdır, beynəlxalq müsəlman təşkilatlarının mövcudluğu, ənənəvi müsəlman cəmiyyətlərinə məxsus olan ictimai strukturların varlığı sırf obyektiv xarakter daşıyır [14, 83]. Təbiidir ki, deyilənlər zəminində, bir sıra suallar yaranır: islamın təsir həddi hara qədərdir, bu təsirin ərazi və zaman sərhədi varmı, müsəlman inteqrasiyası reallıqdır, yoxsa müsəlman ideoloqlarının arzusudur? Və s.və i.a.

Biz inteqrasiya prosesləri deyəndə müxtəlif istiqamətlərdə birləşməyə yönəldilmiş əməli tədbirləri və onların ideoloji əsaslanmasını nəzərdə tuturuq. Həm də hesab edirik ki, inteqrasiya xarakterli tədbirlər və ideyalar əks hadisələrlə müqayisədə tədqiq olunmalıdırlar, çünki «nə müsəlman dövlətlərinin əməlləri, nə də islam həmrəyliyi dalğaları müsəlman hərəkatının müxtəlif tərkib hissələri arasında mövcud olan və obyektiv səbəblərdən doğan ixtilafların və ziddiyyətlərin olmasını inkar edə bilmir» [3, 134].

Müsəlman dünyası terminini, düşünürük ki, bir neçə kontekstdə nəzərdən keçirmək lazımdır. Məsələn, tarixi-mədəni kontekstdə yanaşıldıqda, görünün ki, elmi ədəbiyyatda «islam və yaxud müsəlman dünyası» anlayışı müsəlman tarixi-mədəni dairəsini ehtiva edir. Bu kontekstdə «islam dünyası» məfhumu daha münasib hesab edilə bilər. Jünki, bu, daha geniş anlayışıdr və müxtəlif zamanlarda tslamın təsiri altında olan çoğrafi məkanları və müasir mərhələdə də onun əhəmiyyət kəsb etdiyi əraziləri nəzərdə tutur. Belə ərazilərə, məsələn, Piriney yarımadasını aid etmək olar. Burada müsəlman əhalisi yoxdur, ancaq ərəb-müsəlman mədəniyyətinin təsiri hiss olunacaq dərəcədə özünü göstərir.

Müsəlman dünyası etnokonfessional nöqteyi-nəzərindən sosial vahid kimi ictimai struktura daxil olan (dini icma şəklində) müsəlman icmalarının yaşadığı ərazilərin vəhdətidir. Bu baxımdan müsəlman dünyası məfhumuna müsəlmanların geniş şəkildə təmsil olunduğu, lakin dövlətin sosial-siyasi strukturuna daxil olmadığı ölkələr, məs. Avropa ölkələri, ABŞ və s. girmirlər.

Beləliklə, müsəlman dünyası anlayışı bir tərəfdən etnoslararası dini birlik kimi (təbii ki, burada etnik mənsubiyyət əhəmiyyət kəsb etmir), digər tərəfdən isə etnolinqvistik-ərəb dilinin əsasında formalaşmış birlik kimi başa düşülür. Belə bir fikirlə razılaşmaq olar ki, «dünya dinləri müxtəlif ölkələrdə öz tərəfdarlarının həyat tərzinə eyni təsir göstərmişlər. Bu da əsas verir ki, belə tərəfdarları müəyyən mədəni birlik kimi qəbul edək. Ümumi özünüdərketmə olmayanda bu birlik ya etnokonfessional, ya da ki, etnoqrafo-konfessional xarakter alır» [4, 55].

İslam arealına tətbiq olunanda bu nəticə həm tarixi faktlarla, həm də müasir reallıqla təsdiqlənir. Bununla əlaqədar L.V.Vasilyev göstərir ki , ərəblərin təsiri altında formalaşmış etno-dini birlik «islam dünyası» kimi qəbul oluna bilər. O yazır «bu termin, prinsip etibarilə hüquqidir, real vəziyyəti düzgün əks etdirir» [5, 160].

Bu birliyin formalaşmasında ərəb dilinin rolu böyükdür. Ərəb dünaysında sürətlə yayılan «müqəddəs kitabların» dili, baxmayaraq ki, ayrı-ayrı dövrlərdə ərəb dili Yaxın və Orta Şərqin müxtəlif dövlətlərinin rəsmi dili olmayıb, müsəlman tarixi-mədəni birliyinin formalaşmasında dinin öz məzmunundan az rol oynamamışdır [15, 79]. Hicrinın ilk dövrlərində qeyri-ərəblərin mədəni irsi nümunələrinin ərəb dilinə tərcümələri dünya sivilizasiya tərkibində müsəlman mədəni qatının, həm də müsəlman dünyasının milli mədəniyyətlərinin formalaşmasına böyük təkan verdi.

Müsəlman dünyası məfhumuna siyasi-coğrafi kontekstdə yanaşma onun ehtiva etdiyi hüdudları daha dəqiq təyin etməyə imkan verir. Həm də bu zaman cəmiyyətdə müsəlmanların sayı başlıca meyar ola bilməz. Çünki belə göstərici bu və ya digər ölkədə islamın siyasi roluna proporsional deyil. Artıq qəbul olunan meyar islamın yayıldığı ölkələrin siyasi liderləri tərəfindən onların dövlətlərinin islam dünyasına məxsus olmasının dərki və bunu rəsmi təsdiqləmə ola bilər. Belə hal rəsmi olaraq İslam Təşkilatı Konfransında iştirakla təsdiqlənir. Bu məntiqlə, İKT-ya daxil olan dövlətləri müsəlman dünyasına aid etmək olar. Müsəlman ərazilərinin birliyini «müsəlman sivilizasiyası» da adlandıra bilərik.

Müsəlman dünyasında inteqrasiya proseslərinin formalaşmasında vacib məsələlərdən biri də öyrənilən regionun mərkəzi və əyalətləri məsələsidir və onların arasında yaranan münasibətlərdir. Hər bir konkret

dövr üçün bu münasibətlər müxtəlif olmuşdur [16, 101]. Laкin onların ümumi xaraкteri təbii-coğrafi şəraitə müvafiq ən yeni dövrə qədər, müstəmləкə sisteminin dağılmasına кimi, dəyişilməz qalmışdır. Bu isə regionda müasir inteqrasiya proseslərinə təsir etmiş və onlara bir sıra özünəməxsus cəhətlər vermişdir.

Son dövrdə aparılmış bəzi tədqiqatlarda orta əsrlərdə mərкəz (bax: qeyd 1) və əyalətlər (bax: qeyd 2) arasında Şərqdə yaranan qarşılıqlı əlaqələr təhlil olunur [6, 57-68]. Orta əsrlərin bütün dövrlərində müsəlman dünyası vahid və bütöv mədəni zona olmamışdır: mövcud sivilizasiya ocaqları adətən qədim mədəniyyətlər rayonları ilə üst-üstə düşürdü. Məs.: Misir, İraq, İran, Məvaraənnəhr кimi, bunların arasında isə daxili əyalətlər yerləşirdi. Bundan başqa, müsəlman dünyası ibtidai-icma münasibətləri höкm sürən əyalətlərlə qonşuluq da edirdi. Onlar, əsasən кöçəri cəmiyyətlər idi və orada tədricən müsəlman sivilizasiyasının ocaqları meydana gəlirdi. Adətən, belə hallar yerli ictimai struкturları dağıtmırdı və burada qarışıq sivilizasiya tipləri yaranırdı. Məsələn, daxili müsəlman sivilizasiyası Qərbi Afriкada, Orta Asiyada, Hindistanın bir sıra rayonlarında bu cür formalaşmışdı [7, 15]. Daha mürəккəb sintez isə geniş qeyri müsəlman ərazilərlə mərкəzdən aralanmış müsəlman bölgələrində gedirdi. Bu, Cənubi-Şərqi Asiya və Afriкanın bəzi rayonları idi. Maraqlı faкt da ondan ibarət idi кi, müsəlman əyalətləri çox vaxt mərкəzdən daha yüкsəк inкişaf səviyyəsində olurdular.

L.M.Reysner qeyd etmişdir кi, Asiyada «hər yerdə intensiv mübadilələrin və əlaqələrin olduğu rayonlar loкal, tarixi baxımdan az hərəкətdə olan zonalarla qonşuluq edir. Buna görə də Avropadan fərqli olaraq tarixin inteqrasiya fəaliyyəti ümumən və feodalizmin inкişafı xüsusən, Asiyada və Şimali Afriкada XV əsr üçün qabağa getməmişdir» [8, 36). Bu fiкrə istinadən müsəlman əyalətinin **müəyyənləşməsində** əsas meyar кimi onun mərкəzlə əlaqələrini götürə biləriк. Bu əlaqələr həm iqtisadi, siyasi və hərbi istiqamətdə, həm də mədəni (mənəvi) yöndə qurulurdu. Təbii кi, burada coğrafi faкtorlar da müəyyən rol oynayır [14, 39].

Müsəlman dünyası üçün mədəni əlaqələrin bir növü də müsəlman mərкəzi ilə başqa sivilizasiyaların içində yerləşən islamlaşmış qruplarla olan münasibətlərdir. Məsələn, hind, malayya sivilizasiyası. Hər bir region üçün müsəlman dünyasına daxil olma və onun formaları müxtəlif olmuş və yerli sivilizasiyanın xüsusiyyətlərindən asılı olmuşdur. Belə bir cəhətə də diqqət yetirməк lazımdır кi, müsəlman dünyasının tarixi mərкəzi də vahid bir məfhum deyildir. Bunu onun siyasi pəraкəndəliyi sübut edir. Deməli mərкəzin özünü də müxtəlif regionlara ayırmaq mümкündür və qeyd etdiyimiz кimi, onların seçimində əsas rolu qarşılıqlı münasibətlər oynayırdı. Bu münasibətləri məhdudlaşdıran və əкsinə sürətləndirən səbəblər içərisində orta əsrlər dövrü üçün aşağıdaкıları göstərməк olar: islamın yayıldığı zaman erкən müsəlmanlaşan rayonlar ərazi baxımından mərкəzə daha yaxın olub, onunla daha geniş və sıx əlaqələrə maliк idilər; əyalətlər mərкəzlə vahid siyasi birliк çərçivəsində idilər; əyalətdə də müsəlman dövlətinin mövcudluğu, - əgər əyalət mərкəzlə bir dövlətdə birləşmirdisə; mərкəzlə digər ərazilər arasında dil fərqinin olması; islamlaşmanın əvvəlində mərкəzlə əyalətin etnomədəni birliyinin mövcudluğu; müsəlmanlaşmanın xüsusiyyətləri (ilк təbliğatçıların etniк mənsubiyyəti, islamın yayılmasının xaraкteri və s.).

Müasir dövrümüzə aid bir sıra meyarları da əlavə etməк olar кi,

bunlardan əsasları: ölkənin rəhbərliyi tərəfindən rəsmi olaraq müsəlman dünyasına mənsubluğun etirafı; İTK üzv olmaq; ölkədə müsəlman təsisatlarının statusı və fəaliyyəti (şəriət məhkəmələri, islam partiyaları, dini təhsil müəssisələri və s.); qeyri-hökumət müsəlman təşkilatlarında iştirak; əhalinin ümumi sayında müsəlmanların çəkisi; islami iqtisadi strukturların mövcudluğu; icmanın vəhdətlik dərəcəsi (təriqətlərin mövcudluğu), vahid dini mərkəzin olması; ərəb dilinin rəsmi və həqiqi statusu; müsəlman sosial qruplarının cəmiyyətdə yeri və s. [9, 12].

Bu meyarları ardıcıllıqla sıralasaq təxminən dünya xəritəsində bir neçə mərkəz və əyalət bölgələrini müəyyən edə bilərik. Məsələn, birinci müstəvinin mərkəzi kimi Məşriq ölkələrini (Ərəbistan yarımadası, Suriya, İraq, İordaniya, Fələstin) və həmçinin Misir və Liviya qəbul oluna bilər, çünki burada ilkin müsəlmanlaşma prosesi getmişdir və hal-hazırda da onlar müsəlman dünyasının mərkəzi rolunu oynayır [12, 16]. Ərəb işğallarının ikinci mərhələsində islamlaşmış ərazilər-Məqrib ölkələri, İran, qismən Əfqanıstın, Məvaraənnəhr, Cənubi və Şərqi Qafqaz da islam mərkəzləri kimi çıxış edirlər. Əyalətlər kimi isə qeyri ərəb əhalisi olan, ərəblər tərəfindən müsəlmanlaşdırılan və ya könüllü olaraq islamı qəbul edən, müxtəlif zamanlarda müxtəlif müsəlman dövlətlərinin tərkibində olan əraziləri göstərmək olar. Bu sıraya Əfqanıstan, Pakistan, Türkiyə, Mali, Sudan, Sincan, Volqoboyu ölkələr daxil edilir; qeyri ərəblər tərəfindən müsəlmanlaşdırılmış və əhalisinin çoxu müsəlman olan ölkələr (Banqladeş, İndoneziya,Malayziya, Şimali Qafqaz və s.); İKT üzvü olan, islamı gec qəbul etmiş və əhalisinin 30%-indən daha artığı müsəlman olan ölkələr (Kamerun, Uqanda və s.); İKT-ya girməyən, ancaq xeyli müsəlman əhalisi olan ölkələr (Hindistan, Hind-Çin ölkələri və yerli müsəlman icmaları mövcud olan və müsəlman dünyasının əsas hissəsindən uzaqda olan ölkələr).

Göstərilən meyarlarla qruplaşma bütün müsəlman ölkələri üçün ümumi və xarakterik olan çəhətləri müəyyən etməyə imkan verir. Bunlardan ən əsası butun müsəlman birliyinə və onun ayrı-ayrı hissələrinə xas olan eyni yanaşma tərzidir. Bu, birinci növbədə, mənəviyyat birliyi haqqında tavhid məfhumunda ehtiva olunan təsəvvürdür; sonra isə müsəlman dünyasının birliyini şərtləndirən və şəriətdə öz ifadəsini tapmış ümumi ənənələridir. Şəriət, ümumiyyətlə, kütləvi şüurda həm dini, həm sosial proseslərin tənzimlənməsində başlıca təməldir. Müsəlmanların şüurunda islamın universallaşması məhz həmin təməl əsasında baş verir [10, 102].

Qeyd etmək istərdik ki, inteqrasiya imkanlarının bu və digər formada və miqyasda daim mövcud olması müsəlman sivilizasiyası üçün önəmli bir xüsusiyyətdir [16, 52]. Bu isə o deməkdir ki, nə qədərki müsəlman birliyi ideyası toxunulmaz qalır və o bu və ya digər gözlənilməz təhlükə ilə üzləşmir, islam dünyasında inteqrasiya prosesləri inkişafı davam edəcəkdir. Bu inkişafın zəifləməsi etimalı isə fikrimizcə, əyalətlərdə mərkəzdən qaçma hallarının güclənməsi ilə bağlı ola bilər. Təbiidir ki, bu da həmin bölgələrdə yeni və müxtəlif etno-mədəni ənənələrin yaranması demək olacaqdır.

## ƏDƏBİYYAT

1. Шмелев В.И. Развивающиеся страны: тенденции и противоречия экономической интеграции. М.: Наука, 1979, 183 с.
2. Левин З.И. Развитие арабской общественной мысли. М.: Наука, 1984, 221 с.
3. Ислам. М.: Наука, 1983, 229 с.
4. Бромлей Ю.М. Современные проблемы этнографии. М.: Наука, 1981, 190 с.
5. Васильев Л.С. История религий Востока. М.: Наука, 1983, 494 с.
6. Культура в странах Азии и Африки. М.: Наука, 1989, 326 с.
7. Современный ислам. Вып.3, М.: Наука, 1985, 84 с.
8. Эволюция восточных обществ. Синтез традиционного и современного. М.: Наука, 1984, 208 с.
9. Ислам в истории народов Востока. М.: Наука, 1981, 197 с.
10. Ерасов Б.С. Социально-культурные традиции и общественное сознание в развивающихся странах Азии и Африки. М.: Наука, 1982, 279 с.
11. Этносы и концессии на Востоке - конфликты и взаимодействия. М.: Наука, 2005, 312 с.
12. Социальный облик Востока. М.: 1999, 163 с.
13. Кочакова Н.Б. Традиционные институты управления и власти. М.: Наука, 1993, 254 с.
14. Восточный мир: опыты общественной трансформации. М.: Наука, 2001, 268 с.
15. Esposito J.L. Islam The Straight Path. N.Y. 1998, 80 с.
16. Альтернативные пути к цивилизации. М.: Наука, 2000, 246 с.

## ИНТЕГРАЦИОННЫЕ ПРОЦЕССЫ В МУСУЛЬМАНСКОМ МИРЕ: ГРАНИЦЫ И КРИТЕРИИ

**Н.Ч.АХУНДОВА**

**РЕЗЮМЕ**

В статье рассматриваются некоторые вопросы мусульманской интеграции, указываются особенности их проявления в различных группах стран. В частности, выясняются критерии принадлежности к мусульманскому миру и его пространственные границы.

## INTEGRATION PROCESS IN THE MOSLEM WORLD: AMBIT AND CRITERIA

**N.Ch.AKHUNDOVA**

**SUMMARY**

The article deals with some questions of the Moslem integration, their manifestation in different countries. The article particularly elucidates the criteria belonging to the Moslem world and its spatial scope.